# Tələbələrin təlimə adaptasiyasında əqli iş qabiliyyətlərinin dinamikası

**Nigar Məmmədəli qızı Məmmədova**
*ADPU-nun fəlsəfə doktoru proqramı üzrə doktorantı*
**E-mail:** nigar.memmedova.1962@gmail.com

**Rəyçilər:** psixol.ü.f.d., dos. M.C. İsmayılova,
psixol.ü.f.d., dos. R.N. Mirzəyev

**Açar sözlər:** əqli iş qabiliyyəti, inkişaf dinamikası, təlimə adaptasiya, neyrofizioloji mexanizmlər, inteqrasiya

**Ключевые слова:** умственные способности, динамика развития, адаптация к обучении, нейрофизиологические механизмы, интеграция

**Key words:** mental abilities, developmental dynamics, learning adaptation, neurophysiological mechanisms, integration

Təlimin səmərəliliyinin təminatı və mütəxəssis məzun hazırlığının keyfiyyətinin yaxşılaşdırılmasının mühüm aspekti ondan ibarətdir ki, seminar məşğələlərində tələbələrin iş qabiliyyətinin yüksəlməsi ilə adaptasiya arasında qarşılıqlı əlaqə mövcuddur. Bu təlimin əsasında əqli fəaliyyətin neyrofizioloji mexanizmləri dayanır ki, buraya qavrayış, təsəvvürlər, hisslər, iradə, hafizə, diqqət aid edilir.

Göstərilən psixofizioloji proses və hadisələrin aktivlik səviyyəsi mərkəzi sinir sisteminin funksional vəziyyətindən asılıdır ki, o təlim vasitələrinin aparıcı amillərinin təsiri altında formalaşır. Fəallıq səviyyəsi bir tərəfdən orqanizmin mühüm imkanları, digər tərəfdən isə təlim prosesində tələbələr qarşısında qoyulan vəzifələrlə müəyyən edilir.

Tələbələrin əqli qabiliyyətlərinin əsas mexanizmləri kompleksinə onların adaptasiyası aiddir. Təlimin üsul və metodikası təkcə tədrisə uyğunlaşmış tapşırıqlarla, tələbələrin psixofizioloji imkanlarının vəziyyəti ilə məhdudlaşdırılmamalıdır. Onlar funksional imkanların təkmilləşdirilməsinə, habelə inkişafına yönəldilməlidir.

Ali pedaqoji məktəblərin təlim fəaliyyətində informasiyaların alınması və onun böyük həcminin mənimsənilməsi nəinki əqli iş qabiliyyətinin fizioloji qiymətləndirilməsini və gərginliyin dərəcəsini, eləcə də əqli qabiliyyəti tələb edir. Tələbələrin mərkəzi sinir sisteminin funksional vəziyyətinin bu və ya digər göstəricisi kimi əqli qabiliyyətə adaptasiyanın təsiri elə qoyulmuşdur ki, burada təlim rejimi, istirahət növləri, onun davamlılığı təlim prosesinin şərtləri ilə sıx surətdə bağlıdır.

Alimlərin apardıqları elmi tədqiqatlar göstərir ki, əqli iş qabiliyyətinin dinamikasının öyrənilməsi şərti reflektiv, davranış və digər reaksiyalar, qüvvədə olan plan və proqramların tələblərin təliminə psixoloji-pedaqoji qiymətin verilməsinə imkan yaradır. Göstərilənlər qismində ali pedaqoji məktəblərdə təlim fəaliyyətinə adaptasiyanın təsiri və tələbələrin orqanizminin funksional vəziyyəti, habelə təlim yüklərinin təsiri altında yorğunluğun baş verməsi halları qeydə alınmışdır.

Psixi funksional vəziyyətin aparıcı göstəricilərindən birinə əqli iş qabiliyyəti, o cümlədən psixikanın əsas xassələrini inteqrasiya edən qavrayış, diqqət və hafizə xidmət edir. Alimlərin fikrincə, əqli qabiliyyət hər bir keçid müddətində tələbələrin funksional vəziyyətini, müxtəlif

təlim predmetlərinə imkanlarını adekvat şəkildə əks etdirir.

Uğurlu funksional vəziyyətin göstəricisi tələbələrin əqli iş qabiliyyətidir. Əqli iş qabiliyyətinin səviyyəsi tələbələrin psixi və fiziki sağlamlığının əsas göstəricilərindən olub onun yüksək səviyyəsini qoruyub saxlayır. Ali pedaqoji məktəbdə tələbələrin adaptasiyasında həyatın əsas məzmunu təlim sayılır ki, o da böyük əqli yükə malik prosesdir.

Ali pedaqoji məktəblərdə tələbələrin adaptasiyasında təlim məşğələlərini elə təşkil etmək lazımdır ki, tələbələr müvafiq təlim yüklərinin öhdəsindən gələ bilsinlər. Bu cəhət xüsusilə də kiçik kurs tələbələri üçün çox mühümdür. Onlar təlim materialının həddindən artıq həcmli və mürəkkəb olması ilə sıx bağlıdır və ya tələbənin intellektual xassələrinin xüsusiyyətləri ilə şərtlənir.

Təlimin üçüncü ilinin dinamikasında baş verən dəyişmələr məhz bu mərhələdə təlimə adaptasiyanın nəticəsinə dair fikir söyləməyə imkan verir. Tədris ilinin sonunda yuxarı kurs tələbələrinin təliminin dinamikasında yorğunluğunun artması halları müşahidə edilir. Tələbələrin əksəriyyətində şərti-hərəki reaksiyaların latent mərhələsində yerinə yetirilən işlərin həcmi aşağı düşür, hafizə və diqqət yaxşılaşır.

Ali məktəbin yuxarı kurslarında ali sinir fəaliyyətinin funksiyalarının yaxşılaşması nəticəsində təlimə adaptasiya hemodinamik göstəricilərdəki uğursuz dəyişikliklərlə müşayiət olunur. Bu da görünür ki, bütün öyrənmə mərhələsində təlim yüklərinə uğursuz təsirlə bağlıdır. L.K. Buslovskayanın fikrincə, gərgin adaptasiya prosesi tələbələrin intellektual məhsuldarlığının və uğurlarının səviyyəsinin aşağı düşməsinə səbəb olur (1).

E.Q. Şemetova, M.E. Leonidoviç birgə yazdıqları "Təlim prosesində tələbələrin əqli iş qabiliyyətlərinin dinamikası" adlı məqalədə gün, həftə və semestrin müddətindən asılı olaraq tələbələrin əqli iş qabiliyyətinin dinamikasını, təlim yüklənmələrinin müxtəlif səviyyələri, həmçinin tələbələrin əqli iş qabiliyyətinə mənfi təsir göstərən amilləri araşdırmışlar. Alim tədqiqatçılar tələbələrin universitetə daxil olma mərhələsindəki adaptasiya qabiliyyətlərini və təhsil qrupunun fəaliyyətinə ilk daxil edilmələrini qeyd etmişlər. Bunlarla yanaşı E.Q.Şemetova, M.E.Leonidoviç tələbələrin iş qabiliyyətinin dinamikasının təhlilinə əsasən yorğunluğun və həddindən artıq gərginliyin qarşısının alınması, universitetdə dərs cədvəlinin planlaşdırılması ilə bağlı məsləhətlərini vermişlər (3).

Tələbələrin təlim işlərinin elmi təşkili əqli və fiziki yüklərin optimal birgə fəaliyyətini və idraki fəaliyyətin yüksək səviyyəsini müəyyən edir. Məhz ali məktəbdə təlim prosesi belə yanaşmadan, fiziki mədəniyyətdən istifadə etməyi tələb edir. Bunun üçün ilk növbədə yüksək əqli iş qabiliyyətlərinin və əqli qabilliliyin aktivləşməsi üçün fiziki təmrinlərin səmərəli növlərinin tətbiqi zəruridir.

Fiziki təmrinlərin əhəmiyyəti yalnız orqanizmin funksional imkanlarının yüksəlməsi, sağlamlığın yaxşılaşması ilə məhdudlaşmır, həm də əqli iş qabiliyyətini yüksəldir, ali məktəbdə təlimə adaptasiyanı sürətləndirir. Buna baxmayaraq tələbələrin əksəriyyəti fiziki mədəniyyət və idman məşğələlərinin faydalılığını düzgün dəyərləndirmirlər.

Çoxsaylı psixoloji tədqiqatlar göstərir ki, tələbələrin hərəki fəallığının səviyyəsi yuxarı kurslarda aşağı enir. Tələbələrin hərəki fəallığının məhdudlaşması, əqli fəaliyyətin gərginləşməsi ilə bağlı olan yüklər emosionallığın yüksəlməsi fonunda cərəyan edir. Ali pedaqoji məktəblərin yalnız III-IV kurs tələbələri təlim prosesinə, onun rejiminə adaptasiya olunurlar, əqli iş qabiliyyətinin göstəricilərinin isə aşağı olması halları tez-tez müşahidə olunur. Psixoloji-pedaqoji ədəbiyyatların təhlili göstərir ki, ali pedaqoji məktəblərdə adaptasiya prosesinin tələbələrin əqli iş qabiliyyətinin dəyişməsi dinamikasına məşğələlərdən əvvəl və ya sonra, habelə təhsil ilinin ortasında və sonunda təsir göstərməsinə dair vahid fikirlər mövcud deyildir. Bü-

tün deyilənləri ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, təlimə adaptasiyanın psixoloji təsiri I kursdan IV kursa qədər tələbələrin yaşından, cinsindən asılı olaraq kifayət qədər deyildir ki, bu bir çox çətinliklərin yaranmasına səbəb olur.

Y.R. Vişnevskiy J. Pyajenin mühakimələrindən irəli gələrək belə hesab edirdi ki, adaptasiya uşağın əqli əhatə dairəsində ən mühüm prosesdir. Adaptasiya prosesində onlar tərəfindən assimilyasiya və akkomadasiya müəyyən edilmişdir. Müəllif assimilyasiyaya xarici hadisələri mənimsəmə, akkomodasiyanı isə yeni informasiyalar əldə etmək məqsədilə əqli fəallığı yenidən təşkil etməyi mühüm hesab edirdi (2).

Adaptasiyanın ən mühüm meyarlarından biri əqli iş qabiliyyəti və yorğunluqdur. Tədqiqatçılar qeyd edirlər ki, insanın əqli iş qabiliyyəti fərdin potensial imkanları müəyyən vaxt ərzində effektivlik səviyyəsində yerinə yetirməsinin məqsədyönlü fəaliyyəti və ya xarakteristikasıdır. Əqli iş qabiliyyətinin davamlılıq dərəcəsi orqanizmin müqaviməti və şəxsiyyətin fəaliyyətinin xoşagəlməz amillərə təsiri ilə şərtlənir.

Təlim prosesində tələbələrin əqli iş qabiliyyəti stabil olaraq qalmır, gün, həftə, semestr, bütün tədris ilinin dinamikasında müzakirə edilir. Təlim həftələrinin sayını planlaşdırsaq bütünlükdə tədris prosesinin 5 ay davam etdiyini görərik. Tədris prosesinin qrafiki ildə 52 həftə təşkil edir. Tələbənin təlim yüklərinin həcmi gərgin əmək tələb etdiyindən çoxdur (buraya autitoriya məşğələləri və sərbəst işlərin saatı daxildir). Normaya uyğun olaraq həftədə 54 saatdan artıq deyil. Tələbələrin auditoriya məşğələləri həftədə 27 saatı təşkil edir. Bu saatlara fakültativ fənlər aid edilmir. Dərs günü müddətində tələbələrin əqli iş qabiliyyətlərinin dinamikasını təhlil edərək növbəti nəticələrə gələ bilərik:

1) Tələbənin dərs günü müddətində: I qoşa saatlarda mobilləşmə mərhələsi başlayır ki, burada işin ritmi, qərarın qəbulunun təhlili baş verir. Odur ki, bu qoşa saatda yaradıcı tapşırıqlardan test tapşırıqları planlaşdırılır ki, əsas məqsəd əmək fəaliyyəti şəraitinə orqanizmin adaptasiya olunmasıdır. II və III qoşa saatlarda maksimum dərəcədə tələbələrin əqli iş qabiliyyəti yüksəlir. Bu saatlarda mürəkkəb tapşırıqlar, yüksək mərkəzləşdirmə tələb edən diqqətin yüksəlməsi təlim əməyinin gərginləşməsi müşahidə edilir. IV qoşa saatlar tələbələrdə yorğunluq, tələbələrin 30%-də əqli iş qabiliyyətinin aşağı düşməsi ilə müşayiət olunur. Bu mərhələ yüksək emosional güc tələb etməyən optimal mərhələ kimi xarakterizə olunur.

2) Adaptasiyanın II mərhələsinin bir həftəliyi ərzində dəyişikliklər nəzərə çarpır. Bazar ertəsi adi təlim iş rejiminə alışma ilə başlayır. II mərhələ çərşənbə axşamı, çərşənbə, cümə axşamından yüksək əqli iş qabiliyyəti müşahidə olunur. III mərhələ cümə və şənbə günləridir ki, əqli iş qabiliyyətinin zəifləməsi ilə diqqəti cəlb edir.

3) Tədris ili müddətində tələbələrin əqli iş qabiliyyəti növbəti dəyişikliklərə məruz qalır:

— I semestrin ortalarında təlim fəaliyyətində tələbələrə nəzarət 58% təşkil edir. Tədris işinin əvvəlində və axırında aşağı düşmələr müşahidə edilir. II semestrin əvvəlində və ortasında 52-54%-ə qədər göstəricilərin stabilləşməsi müşahidə edilir.

— Tələbələr üçün mürəkkəb mərhələ imtahan mərhələsi sayılır, burada əqli iş qabiliyyəti 36-38% təşkil edir.

Beləliklə, tələbələrin əqli iş qabiliyyətinin dəyişməsi mərhələlərin ardıcıl olaraq dəyişməsi ilə xarakterizə olunur. Bu hadisələr təlim fəaliyyətinin optimal şəraitində tədbirlərin işlənilməsi üçün mühüm əhəmiyyət kəsb edir. Təlim prosesi tələbələrin əqli fəaliyyətinin dəyişməsinə təsir edir və konkret əqli fəaliyyətin yerinə yetirilməsində qabiliyyət kimi parametrlərin effektivliyi həddində müəyyən edilir. Yüksək əqli, fiziki, psixoemosional iş qabiliyyətini saxlamaqla asan adaptasiya olmaq imkanları təzahür edir, müvəffəqiyyət artır, mühüm informasiyalar mənimsənilir. Əqli iş qabiliyyətlərinin dəyişməsi gün, həftə, semestr, tədris ilində baş

verir. Əqli iş qabiliyyəti tələbələrin ixtisasından, bioloji ritmdən, fiziki yüklənmələrin sayından asılıdır.

Təlim fəaliyyətində tələbənin yüksək əqli iş qabiliyyəti o hallarda təmin olunur ki, həyati ritm, orqanizmin bioloji ritmləri onların psixofizioloji funksiyaları və fiziki hazırlığı ilə razılaşdırılır. Həyat fəaliyyətinin yeni sisteminə tələbələrin daxil olması əsəb gərginliyi, iradi fəallığın aşağı düşməsi, narahatlıq və s. ilə müşayiət oluna bilər. Baş verən hadisələr təlim prosesində tələbələrin təlimə çətin adaptasiyası ilə bağlıdır. Təlim fəaliyyətinin təsiri altında tələbələrin əqli iş qabiliyyətləri dəyişikliklərə məruz qalır və o gün, həftə, semestr, bütün il boyu müşahidə olunur.

**Məqalənin aktuallığı.** Məqalə tələbələrin təlimə adaptasiyasında əqli iş qabiliyyətlərinin araşdırılması və onların inkişaf dinamikasının öyrənilməsi baxımından aktualdır.

**Məqalənin elmi yeniliyi.** Tələbələrin təlimə adaptasiyasında əqli iş qabiliyyətlərinin inkişaf dinamikası ardıcıllıqla araşdırılmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbələr, magistrant və doktorantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Бусловская Л.К. Интеллектуальные возможности и умственная продуктивность студентов при адаптации к учебным нагрузкам. Валеология, 2010.

2. Вишневский, Ю.Р. Адаптация первокурсников: проблемы и тенденции/ [Текст] Ю.Р. Вишневский, Л.Н. Боронина, Я.В. Дидковская, С.И. Минеева // Университетское управление. 2001, № 4.

3. Шеметова Елена Григорьевна, Мальгин Евгений Леонидович. Динамика работа способности студентов вуза в процессе обучения. Филологические науки. Вопросы теории и практики, 2017.

**Н.М. Мамедова**

## Динамика умственных способностей к работе при адаптации студентов

## Резюме

В научной статье исследуется динамика развития умственных способностей студентов при адаптации к обучению. Автор справедливо отмечает, что существует взаимосвязь между повышением умственные способности студентов и адаптацией. Важную роль в этом обучении играют нейро-физиологические механизмы психической деятельности. В высшей педагогической школе основное содержание жизни в адаптации учащихся – учеба, которая представляет собой процесс с большой умственной нагрузкой.

**N.M. Mammadova**

## Dynamics of mental ability to work when adapting students

## Summary

The scientific article examines the dynamics of the development of students' mental abilities during adaptation to learning. The author rightly notes that there is a relationship between improving the mental abilities of students and adaptation. Neurophysiological mechanisms of mental activity play an important role in this learning. In a higher pedagogical school, the main content of life in the adaptation of students is study, which is a process with great mental stress.

**Redaksiyaya daxil olub:** 07.01.2021